Respublika.- 2022.- 25 may.- S.10.

**2022-ci ilin "Şuşa İli" elan edilməsi ilə əlaqədar Bakı şəhəri, Yasamal rayonu, Vaqif Mustafazadə adına 2 nömrəli incəsənət məktəbində Cəbrayıl Şəhər Uşaq Musiqi Məktəbinin təşkilatçılığı ilə "Vətənim Azərbaycandır" adlı tədbir keçirildi.**

# "ŞUŞA İLİ"nə
## həsr olunan konsert proqramı

Tədbirdə şəhid ailələri, qazilər, Milli Məclisin deputatı Ceyhun Məmmədov, rayon icra hakimiyyəti başçısının müavini Fəridə İbayeva, Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəisi Əlisoltan Sadıqov, Cəbrayıl Şəhər Uşaq Musiqi Məktəbinin kollektivi və qonaqlar iştirak etdilər.

Əvvəlcə xalqımızın azadlığı və müstəqilliyi yolunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni oxundu. 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncam səsləndirildi, Şuşaya həsr olunmuş videoçarx nümayiş etdirildi.

Tədbirdə çıxış edənlər ölkə Prezidenti İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət nəticəsində ermənilərin iflasa uğrayan məkrli niyyətlərindən, həmçinin Şuşa şəhərinin tarixindən, mədəniyyətindən, coğrafiyasından və tanınmış şəxsiyyətlərindən bəhs etdilər.



Cəbrayıl Şəhər Uşaq Musiqi Məktəbinin kollektivi, həmçinin məktəbin məzunları olmuş tanınmış ifaçılardan Xəyyam Məmmədov və Aqşin Taryeloğlunun tərtib etdikləri rəngarəng konsert proqramı alqışlarla qarşılandı.

**Tofiq HÜSEYN,**
**"Respublika".**